Ankarada Xocalı soyqırımı parkı və abidə-kompleksi layihəsinin təqdimatı

Ankaradakı Yıldırım Bəyazid Universiteti ilə Tarixdaş Millətlər və Cəmiyyətlər Dərnəyi arasında imzalanan anlaşmaya əsasən, YBU ərazisində Xocalı adına park və şəhidlərimizin xatirəsinə abidə ucaldılır. Tikintisinə başlanan Xocalı parkı 1.5 hektar ərazini əhatə edir. Park və orada Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılacaq abidə nadir memarlıq üslubunda layihələndirilib. Xocalı qurbanlarının xatirəsini əbədiləşdirəcək daha bir parkın və abidə-kompleksinin layihəsinin, "Tarix, siyasət və beynəlxalq hüquqda Xocalı soyqırımı" əsərinin, eləcə də türk, rus və ingilis dillərində fəaliyyət göstərən *www.hocalisoykirimi.org* internet saytının təqdimatına həsr olunan mərasimdə diplomatlar, sabiq millət vəkilləri, görkəmli alimlər, Ankaradakı soydaşlarımız, QHT və KİV nümayəndələri iştirak ediblər. Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Sonra Xocalı soyqırımının dəhşətlərini əks etdirən sənədli film nümayiş olunub. Filmdə Xocalı soyqırımına ilk dəfə siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı ümummilli lider Heydər Əliyevin çıxışları, bu bəşəri cinayətin canlı şahidi olan soydaşlarımızın müsahibələri, erməni vandalların Xocalıda törətdikləri vəhşiliklər, habelə Xocalı soyqırımı ilə bağlı izdihamlı yürüşlər və digər tarixi məqamlar yer alıb.

Çıxışlarda tədbirin, eləcə də təqdim olunan işlərin əhəmiyyətindən bəhs edilib. Qeyd olunub ki, bu layihələrin hər biri Xocalı soyqırımının gələcək nəsillərə və dünya ictimaiyyətinə çatdırılması üçün özünəməxsus gücə malikdir. Xocalı soyqırımının bəşəri faciə olmasının dünya ictimaiyyətinə daha dolğun çatdırılması üçün Azərbaycan və Türkiyə bundan sonra da birgə layihələri davam etdirməlidir.

Azərbaycanın Türkiyədəki səfirliyinin birinci katibi Elçin Allahverdiyev, Yıldırım Bəyazid Universitetinin təsisçisi, professor Mətin Doğan, YBU-nun rektoru, professor İbrahim Aydınlı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri Haluk İpək və başqaları çıxışlarında təqdim olunan layihələrin Xocalı soyqırımının əsl mahiyyətinin gələcək nəsillərə olduğu kimi çatdırılmasında əhəmiyyətini yüksək dəyərləndiriblər.

Sonra türk, rus, ingilis dillərində fəaliyyət göstərəcək *www.hocalisoykirimi.org* internet saytının işləmə prinsipi, ayrı-ayrı bölmələrində yerləşdirilən informasiyalar və s. məqamlar barədə iştirakçılara müfəssəl məlumat verilib.

Sonda Tarixdaş Millətlər və Cəmiyyətlər Dərnəyi ilə Ankaradakı Yıldırım Bəyazid Universiteti (YBU) arasında imzalanan anlaşmaya əsasən YBU ərazisində salınan Xocalı soyqırımı parkının və abidə-kompleksinin memarlıq layihəsinə dair filmsurət nümayiş olunub.

Xocalı soyqırımı parkının və abidə-kompleksinin eskizləri barədə məlumat verən layihənin memarı Nurgül Gürsoy diqqətə çatdırıb ki, ərazidə Xocalı şəhidlərinin sayına uyğun olaraq 613 ağac əkiləcək. Parkda sonsuzluq işarəsi formasında yaradılacaq abidə Azərbaycan-Türkiyə qardaşlığını, Türkiyənin bütün məsələlərdə olduğu kimi, Xocalı soyqırımı məsələsində də sonadək Azərbaycanla həmrəy olduğunu simvolizə edir. İlk ağaclar gələn ilin fevralında Xocalı soyqırımının ildönümündə əkiləcək. Parkın və abidə-kompleksinin tikintisinin 2021-ci ildə başa çatdırılması planlaşdırılır. Esenboğa Hava Limanının yaxınlığında yaradılan kompleks enmə və qalxma zamanı təyyarələrdən aydın görünəcək.

Esmira YAZKAN ASLANOVA,
"Respublika" qəzetinin
Türkiyə üzrə xüsusi müxbiri.

Respublika.- 2019.- 26 noyabr.- S.6.